# Azərbaycan Gürcüstanla strateji tərəfdaşdır

Oktyabrın 19-da Milli Məclisin Sədri Oqtay Əsədov Gürcüstanın baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili ilə görüşüb. Görüşdə Azərbaycan-Gürcüstan əlaqələrindən söz açılıb, ölkələrarası münasibətlərin dostluq prinsiplərinə söykəndiyi vurğulanıb.

Milli Məclisin Sədri Oqtay Əsədov qeyd edib ki, Gürcüstan Azərbaycanın strateji tərəfdaşıdır. Azərbaycan-Gürcüstan əlaqələri tarixi köklərə malikdir. Əlaqələrimiz bütün sahələrdə yüksək səviyyədədir. Dövlət başçılarının, eləcə də ayrı-ayrı vəzifəli şəxslərin qarşılıqlı səfərləri bu əlaqələri daha da möhkəmlədir. Oqtay Əsədov Gürcüstanla münasibətlərin daha da dərinləşməsində Azərbaycan hökumətinin maraqlı olduğunu vurğulayıb.



Gürcüstanın baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili də ölkələrimiz arasındakı əlaqələrin ürəkaçan olduğunu deyib. Bildirib ki, Gürcüstan Azərbaycanla eyni coğrafi mövqedə yerşləşməklə bərabər, ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birinin mövqelərini dəstəkləyirlər.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***